İclas iştirakçılarını salamlayan təhsil naziri Misir Mərdanov bildirib ki, ibtidai təhsilin keyfiyyətini yüksəltmək üçün ilk növbədə fənn kurikulumu, təlim strategiyaları və yeni qiymətləndirmə mexanizmlərinin tətbiqini həyata keçirəcək müəllimlərinin pedaqoji-metodiki bacarıqlarını, fənn üzrə biliklərini artırmaq, yeniləşdirmək lazımdır. Son üç il ərzində bu istiqamətdə müəyyən qədər təcrübə əldə edildiyini söyləyən nazir ötən ildən etibarən ibtidai sinif müəllimləri üçün təlimlərin Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (TSİİL) çərçivəsində yeni ixtisasartırma modeli əsasında aparıldığını nəzərə çatdırıb. İbtidai sinif müəllimləri üçün təlim kurslarını aparacaq qeyri-hökumət təşkilatlarının tender vasitəsi ilə müəyyənləşdirildiyinə diqqət çəkən təhsil naziri müvafiq seçimlərdə Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, "İnkişaf" elmi mərkəzi, Azad Müəllimlər Birliyi, "Yaşlıların təhsili assosiasiyası" İctimai Birliyi, "Təhsilin humanistləşdirilməsi" İctimai Birliyinin qalib gəldiyini deyib.

Bu il 9 iqtisadi zona üzrə 86 təlim mərkəzində 164 təlimçi tərəfindən 9670 ibtidai sinif müəlliminə təlimlərin keçirilməsinin nəzərdə tutulduğunu bildirən nazir müvafiq sahədə səmərəliliyi artırmaq üçün bir sıra təkliflərini nəzərə çatdırıb və kurslarda iştirak edən müəllimlərə veriləcək sertifikatların dərəcələr üzrə bölünməsinin əhəmiyyətinə toxunub. Təlim kurslarının yekununda ibtidai sinif müəllimlərinin qiymətləndirilməsi məsələsindən söz açan Misir Mərdanov Təhsil Nazirliyinin müvafiq sahə üzrə çalışan mütəxəssislərinin də bu işə cəlb olunmasının zəruriliyini vurğulayıb.

Nəzərdə tutulan işlərin uğurla həyata keçirilməsi üçün Təhsil Problemləri İnstitutu, Valideyn-Müəllim Assosiasiyası, kütləvi informasiya vasitələri və digər qurumların nümayəndələrinin bu prosesə cəlb edilməsi məsələsinə toxunan nazir 2011-2012-ci tədris ilində yeni işə qəbul olunacaq ibtidai sinif müəllimlərinin də müvafiq təlimlərdən keçməsinin vacibliyini nəzərə çatdırıb. Cari ilin iyun-avqust aylarında keçiriləcək 10 günlük təlim kurslarının tədris planı və proqramının təsdiq edildiyini söyləyən Misir Mərdanov təlimlərin yerlərdə təşkil olunmasını xüsusilə yüksək dəyərləndirib, növbəti illərdə müvafiq kurslara cəlb olunacaq müəllimlərin sayının və əhatə dairəsinin daha da genişlənəcəyini bildirib.

Daha sonra çıxış edənlər layihənin əhəmiyyətindən söz açıb, müəllimlərin təlimlərə cəlb olunması və uğurlu nəticələrin alınması baxımından bir sıra təkliflərini söyləyiblər.

Sonda Təhsil Nazirliyi ilə Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, "İnkişaf" elmi mərkəzi, Azad Müəllimlər Birliyi, "Yaşlıların təhsili assosiasiyası" İctimai Birliyi, "Təhsilin humanistləşdirilməsi" İctimai Birliyi arasında 2010-2011-ci tədris ilində I siniflərdə dərs deyəcək ibtidai sinif müəllimləri üçün təlim kurslarının təşkili üzrə müqavilələr imzalanıb.